

**Ülvi AYDIN**
Bakı Dövlət Universitetinin doktorantı
AYB-nin və AJB-nin üzvü

## Yaşasın qardaşlıq

İstər yüz il öncə, istərsə bu gün,
Bizə dəstək oldu türk qardaşımız.
Hiss etdik qardaşın isti nəfəsin,
Bitdi qələbəylə haqq savaşımız.

Andına, əhdinə sadiq olan xalq,
Türkiyə hər zaman qardaş yanında.
Sözündən dönməzlik, cəsurluq, mərdlik,
Əzəldən olubdur türkün qanında.

Şanlı Azərbaycan, şanlı Türkiyə,
Gerçək qardaşlığın nümunəsidir.
Birdir sevincimiz, birdir qəmimiz,
Ucalan səsimiz haqqın səsidir.

Türk yalnız qardaşın tərəfdarı yox,
O haqq ədalətin sorağındadır.
Qardaş dövlətlərin birgə addımı,
Bu gün dünyanın da marağındadır.

Biz iki dövlətik, vahid millətik,
Öndərin bu fikri yaddaşımızda.
Daim davam etsin uğurlarımız,
Qələbə yazılsın hər daşımızda.

Var ol Azərbaycan, var ol Türkiyə!
Bitib tükənməzdir zəfərlərimiz.
Hər iki dövlətin, böyük millətin,
Yolu haqq yoludur, özü mübariz.

Yaşasın qardaşlıq, əbədi birlik,
Qoşa dalğalansın bayraqlarımız.
Sevinsin dostumuz, xar olsun düşmən,
Hər an şölə saçsın, çıraqlarımız.

## Gözün aydın, Azərbaycan!

Bu gün zəfər bayramındır,
Səninkidir bu şöhrət, şan.
Sən bütövsən, müstəqilsən,
Gözün aydın, Azərbaycan!

Övladların sənin üçün
Keçir qandan, keçir candan.
Müşkülləri edir mümkün,
Gözün aydın, Azərbaycan!

Tapdalanmış ədaləti
Bərpa etdi baş komandan.
Dünya duydu haqq səsini,
Gözün aydın, Azərbaycan!

Ordu yazdı qırx dörd günə,
Yaddaşlara böyük dastan.
Dastan, zəfər dastanıdır,
Gözün aydın, Azərbaycan!

Qarabağın hər qarışı,
Əzəl gündən, hər bir zaman
Bizimkidir bilsin aləm,
Gözün aydın, Azərbaycan!

Qarabağın şikəstəsi,
Bax, yenə də o tar, kaman
Eşidilir Qarabağdan,
Gözün aydın, Azərbaycan!

Dalğalanır Qarabağda,
Ucalarda enməz olan
And yerimiz, bayrağımız,
Gözün aydın, Azərbaycan!

Mərd atalar, mərd analar,
Yetiribdir nər, qəhrəman.
Qəhrəmanlar yazıb dastan,
Gözün aydın, Azərbaycan!

Türküstan.- 2023.- 13-19 iyun. S. 13.